**DOI:** https://doi.org/10.59849/2957-3882.2026.1.92

# HACI ZEYNALABDİN ŞİRVANİNİN "RİYAZ ƏS-SİYAHƏT" ƏSƏRİNDƏ COĞRAFİ KOORDİNATLAR

**Şahin YƏHYAYEV**
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*İran tarixi və iqtisadiyyatı şöbəsi, elmi işçi*
*E-mail: shahin9999@mail.ru*
*ORCİD: https://orcid.org/0009-0004-8094-3355*

*Daxilolma tarixi: 06.04.2026*
*Düzəliş tarixi: 25.05.2026*
*Nəşrə təsdiq tarixi: 28.05.2026*

## XÜLASƏ

Məqalədə XVIII əsrin sonrları və XIX əsrin əvvəllərində yaşamış əslən Şamaxıdan olan alim, səyyah, şair, Nemətullahi təriqətinin başçısı Hacı Zeynalabdin Şirvani Nemətullahi və onun ilk qələmə aldığı "Riyaz əs -siyahət" əsərində coğrafi koordinatlardan bəhs edilir. Mövzu daha yaxşı anlaşılsın deyə ilk öncə müəllifin özü haqqında müxtəsər formada məlumat verilir. Sonra isə Abbasqulu Ağa Bakıxanovun "zəngin və faydalı xəzinə", B.A.Dornun "ən yaxşı kamil mənbə" və Çarlz Rionun "coğrafi əsər, tarixi və biblioqrafik qeydlərlə zəngin mənbə" adlandırdığı "Riyaz əs-siyahət" haqqında məlumat verilmişdir.

Hacı Zeynalabdin Şirvaninin 40 il ərzində Afrikanın Aralıq dənizi sahilləri, Ərəbistan, Oman, Yəmən, Türkiyə, Hindistan, indiki Pakistan, Mərkəzi Asiya və digər ərazilərə etdiyi səyahətlər nəticəsində qələmə aldığı Riyaz əs-siyahət əsərində həmin ərazilərin tarixi, coğrafiyası, əhalisi, adət-ənənələri, tarixi-mədəni abidələri haqqında məlumat verilmişdir. Şirvani, həm də dövrünün bir çox kralları, vəzirləri, nüfuzlu din xadimləri və tacirləri ilə də həmsöhbət olmuş və onlarla apardığı söhbətləri də öz əsərinə daxil etmişdir. Həmçinin Şirvani şəxsən səyahət etmədiyi, gəzib görmədiyi yerlər haqqında da maraqlı məlumatlar vermişdir.

Daha sonra məqalənin məzmununu əks etdirən coğrafi koordinatları izah etmədən öncə bu coğrafi koordinatların verildiyi Əbcəd hesabı haqqında məlumat verilir. Əbcəd hesabının mahiyyəti izah edilir və nümunələr göstərilir. Daha sonra coğrafi koordinatlar haqqında qısa şəkildə ümümi məlumat verilir və ardınca əsərdə qeyd edilən coğrafi koordinatlar və onların Əbcəd hesabı ilə necə müəyyən edilməsi yollarından bəhs edilir.

***Açar sözlər:*** *Hacı Zeynalabdin Şirvani, Riyaz əs-siyahət, coğrafi koordinatlar, Əbcəd hesabı, Kanar adaları, Qrinviç, səyyah, alim.*

# ХАДЖИ ЗЕЙНАЛАБДИН ШИРВАНИ В СВОЕМ ПРОИЗВЕДЕНИИ “РИЯЗ АС-СИЙАХАТ” ГЕОГРАФИЧЕСКИЕ КООРДИНАТЫ

**Шахин ЯХЬЯЕВ**
*Институт Востоковедения имени академика З.М. Буниятова Национальной Академии Наук Азербайджана*
*Отдел истории и экономики Ирана, научный сотрудник*
*E-mail: shahin9999@mail.ru*
*ORCID: https://orcid.org/0009-0004-8094-3355*

*Дата поступления: 06.04.2026*
*Дата исправления: 25.05.2026*
*Дата утверждения к публикации: 28.05.2026*

## АННОТАЦИЯ

В статье рассматривается учёный, путешественник, поэт и глава тариката Нематуллахи, Хаджжи Зейналабдин Ширвани, родом из Шемахи, который жил в конце XVIII и начале XIX века и географические координаты в его первое произведении "Рияз эс-сийахат". Для лучшего понимания темы сначала дается краткая информация о самом авторе. Затем приводится описание произведения "Рияз эс-сийахат", которое Аббаскулу Ага Бакиханов назвал "богатым и полезным сокровищем", Б.А. Дорн — "наилучшим и совершенным источником", а Чарльз Рье — "географическим произведением, богатым историческими и библиографическими заметками".

В труде «Рияз эс-сийахат», написанном Хаджи Зейналабдином Ширвани на основе его путешествий в течение сорока лет по Средиземноморском побережью Африки, Аравии, Оману, Йемену, Турции, Индии, современному Пакистану, Центральной Азии и другим регионам, представлены сведения о истории, географии, населении, обычаях и традициях, а также о культурно-исторических памятниках этих территорий. Ширвани также вёл беседы с многочисленными современными ему правителями, визирями, видными религиозными деятелями и торговцами и отразил эти диалоги в своём труде. Кроме того, в своём труде он представил интересные сведения о местах, которые лично не посещал.

Затем, прежде чем объяснять географические координаты, отражающие содержание статьи, дается информация о системе Абджад, в котором указаны эти координаты, объясняется суть системы Абджад и приводятся примеры. После этого кратко представлена общая информация о географических координатах, и далее обсуждается, как географические координаты, упомянутые в произведении, определяются с использованием системы Абджад.

***Ключевые слова:*** *Хаджи Зейналабдин Ширвани, Рияз эс-сийахат, географические координаты, система Абджад, Канарские острова, Гринвич, путешественник, учёный.*

# GEOGRAPHICAL COORDINATES IN HAJI ZEYNALABDIN SHIRVANI'S WORK "RIYAZ AL-SIYAHAT"

**Shahin YAHYAYEV**
*Institute of Oriental Studies named after Academician Z. M. Bunyadov, Azerbaijan National Academy of Sciences*
*Department of Iranian History and Economics, Researcher*
*E-mail: shahin9999@mail.ru*
*ORCID: https://orcid.org/0009-0004-8094-3355*

*Date of submission: 06.04.2026*
*Date of revision: 25.05.2026*
*Date of acceptance for publication: 28.05.2026*

## ABSTRACT

The article analyzes the scholar, traveler, poet, and head of the Nematullahi order, Haji Zeynalabdin Shirvani, originally from Shamakhi, who lived in the late 18th and early 19th centuries, and the geographic coordinates in his first work "Riyaz es-Siyahat". To understand the topic better, the article first provides a brief information about the author. Then it's presented information about the work "Riyaz es-Siyahat", which was called "a rich and useful treasure", by Abbasgulu Agha Bakikhanov and "the best and most complete source" by B.A. Dorn and "a geographical work, rich in historical and bibliographical notes" by Charles Rieu.

"***Riyaz as-Siyahat"***, written by Haji Zeynalabdin Shirvani based on his travels over forty years across the Mediterranean coast of Africa, Arabia, Oman, Yemen, Turkey, India, present-day Pakistan, Central Asia, and other regions, provides detailed information on the history, geography, population, traditions and customs, and cultural-historical monuments of these areas. Shirvani also had conversations with numerous contemporary rulers, viziers, prominent religious figures and merchants and he included these dialogues in his work. Additionally, he presented interesting information about the places he himself had not traveled to.

Next, before explaining the geographic coordinates reflecting the content of the article, it's supplied information about the Abjad system, in which these coordinates were described. It'is explained the essence of the Abjad system with examples. After that, it'is given a brief general review of geographic coordinates, and then it's dealed the geographic coordinates mentioned in the work and the methods of determination of these coordinates using the Abjad system.

***Keywords:*** *Haji Zeynalabdin Shirvani, Riyaz es-siyahat, geographic coordinates, Abjad system, Canary Islands, Greenwich, traveler, scholar.*

## Giriş

Şamaxı şəhərində dünyaya göz açan görkəmli səyyah, alim, coğrafiyaşünas, filosof, arif, tarixçi, ədib, şair və mütəfəkkir olan Hacı Zeynalabdin Şirvani Nemətullahi ömrünün 40 ilini səyahətdə keçirərək Qafqaz, Mərkəzi Asiya, Türkiyə, İran, ərəb ölkələri, Hindistan və s. ölkələri gəzərək hökmdarlar, alimlər, din xadimləri, tayfa başçıları, sufilər və nüfuzlu şəxsiyyətlərlə həmsöhbət olmuş, səfər etdikləri ölkələr, onların əhalisi, mədəniyyəti, elmi, tarixi, coğrafiyası haqqında zəngin məlumatlar toplamış, bu məlumatları "Riyaz əs-siyahət", "Hədayiq əs-siyahət" və "Bustan əs-siyahət" kimi əsərlərində qeyd edərək gələcək nəsillər üçün yadigar qoyub getmişdir. Bu əsərlərdə qeyd edilən məlumatlar, xüsusən də Şirvaninin şəxsən müşahidə etdiyi hadisə və proseslər, həmsöhbət olduğu şəxslər haqqında qeyd etdiyi məlumatlar onun öz dövrünü öyrənmək baxımından mühüm və faydalıdır. Şirvaninin türk, fars, ərəb və hind dillərini mükəmməl bilməsi, həmin dillərdə mövcud olan ədəbiyyatlarla tanış olması və əsərlərində həmin ədəbiyyatlara müraciət edərək onlardan sitatlar verməsi də oxucu üçün onun əsərlərini daha maraqlı və sanballı edir. Görkəmli səyyahın əsərlərində qeyd edilən coğrafi məlumatlar xüsusi ilə maraqlı və əhəmiyyətlidir. Şirvaninin xüsusən də ölkə və şəhərlərin coğrafi koordinatlarını dövrün tələbindən çıxış edərək Əbcəd hesabı ilə verməsi maraq doğurur. Əbcəd hesabını bilmədən bu koordinatları müəyyən etmək mümkün deyildir. Maraqlı bir məqam da ondan ibarətdir ki, bu koordinatlar səyyahın öz dövründə geniş yayılmış Kanar adalarına görə hesablanaraq təyin edilmişdir. Çünki həmin dövrdə başlanğıc meridianı Qrinviç meridianına görə deyil, Kanar adalarına görə hesablanırdı. Ona görə də bu məsələlər izah edilmədən əsərdə qeyd edilən şəhər və vilayətlərin koordiantlarının yanlış olması təəssüratı yaradır. Bu məqalədə həmin coğrafi koordinatlar və onların Əbcəd hesabı ilə hesablanması qaydaları haqqında söhbət açacağıq.

## Hacı Zeynalabdin ibn İsgəndər Şirvani Nemətullahi

Qələmə aldıqları möhtəşəm əsərlər və şeir xəzinələri ilə dünya və xüsusilə də Şərq aləminə dəyərli töhfələr vermiş Əfzələddin Xaqani, Nizami Gəncəvi, Bəhmənyar ibn Mərzban, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai və digər dahi şəxsiyyətlərimizlə yanaşı ömrünün 40 ilini Yaxın və Orta Şərq, Cənubi və Mərkəzi Asiya, Yunan adaları və Balkan yarımadasına səyahət etməklə keçirən və bu səyahətlərini "Riyaz əs-siyahət", "Bustan əs-siyahət" və "Hədayiq əs-siyahət" kimi əsərlərində qeyd edən Hacı Zeynalabdin ibn İsgəndər Şirvani Nemətullahi adı və imzası da bir çox alim və tədqiqatçıya yaxşı məlumdur. Təsadüfi deyil ki, Şirvani ilə eyni dövrdə yaşamış Abbasqulu ağa Bakıxanov özünün "Gülüstani-İrəm" əsərində "Məstəli Hacı Zeynalabdin Şirvani" adlı başlıqla onun doğum tarixi və yeri, təhsili, səyahətləri və s. haqqında maraqlı məlumatlar vermişdir (Bakıxanov A., 1951. s.249). Abbasquluq ağa Bakıxanovla yanaşı biz müxtəlif dövrlərdə Rzaqulu xan Hidayət, Şefer, Anri Masse, Bloşe, Məhəmməd xan Qəzvini, Məsuməli şah Şirazi kimi dünyaca məşhur alim və tədqiqatçıların da Şirvani haqqında bəhs etdiyini və onu görkəmli səyyah, alim, coğrafiyaşünas, mütəfəkkir və ədib adlandırdıqlarının şahidi oluruq. Hacı Zeynalabdin Şirvani haqqında qeyd edilən müəlliflərlə yanaşı Ağamir Quliyev, Əzizə Cəfərzadə, Zakir Eminov, Rafael Hüseynov, Nurəddin Kərimov, Habil Haqverdiyev, Bəhmən Əliyev və Şahin Yəhyayev kimi alim və tədqiqatçılar da öz elmi yaradıcılğında dahi alimin həyatı və əsərlərindən bəhs etmiş və onun zəngin elmi irsinə dair maraqlı məruzələrlə çıxış etmişlər. Məşhur səyyah Bağdad, Gilan, Şirvan, Xorasan, Kabil, Pişavər, Dehli, Sudan, Kəşmir, Yəmən, Hicaz, İstanbul, Tehran, Şiraz, İsfahan və s. kimi dövrünün məşhur şəhər, vilayət və ölkələrini gəzərək orada görüb-eşitdiklərini qələmə almışdır. Şirvani həm də dövrünün elmi biliklərini əxz etdiyindən baş verən hadisə və prosesləri, eşitdikləri və oxuduqlarını təkcə qeyd etməklə kifayətlənməmiş, faktlar və məlumatlara elmi nöqteyi nəzərdən yanaşaraq onları təhlil etməklə münasibətini bildirmişdir. Böyük ingilis şərqşünası Çarlz Rionun dili ilə desək Şirvani Benqaldan Mərakeşə, Romadan Yəmənə qədər gəzmiş böyük bir səyyah idi (Hacı Zeynalabdin Şirvani, 1974. II hissə, I cild, s.8).

16 avqust 1780-ci ildə Şamaxıda dünyaya gələn alim uşaqlıq və gənclik illərini ilk öncə Şamaxıda sonra isə Kərbəla şəhərində keçirmişdir. 12 il Kərbəlada təhsil aldıqdan sonra dostlarının

məsləhəti ilə səyahətə çıxmaq fikrinə düşdü və bununla da həyatının önəmli hissəsini səyahətdə keçirdi. Şirvani səfərləri zamanı müxtəlif ölkələrin təbii şəraiti, iqlimi, bu ölkələrin xalqlarının adət-ənənə və mədəniyyəti, yaşam tərzi, habelə Şərq ölkələrinin sosial-iqtisadi şəraiti barədə müxtəlif məzmunlu, zəngin məlumatlar və bilgilər toplaya bilmişdir (Hacı Zeynalabdin Şirvani, 2024, s.546).

Şirvani 1838-ci ildə Qırmızı dənizi keçərkən gəmidə vəfat etmişdir. Səyyah Ciddə şəhərində Ummina Həvva qəbirəstanlığında dəfn edilmişdir (Hacı Zeynalabdin Şirvani, 2024, s.29).

Böyük alim və səyyah səfərlər zamanı bir çox qeydlər aparsa da, özünün də "Riyaz əs-siyahət"in II hissəsinin III cildində qeyd etdiyi kimi, çox təəssüf ki, həmin qeydlər məhv edilmişdir. Belə ki, Zeynalabdin Şirvani yazır: "İsfahan mahalından Qomşe adlanan yerə çatanda o diyarın hakimi olan şahzadə Məhəmməd Qasim xan ibn Süleyman xan Qacar zülm və zorakılıq edərək mənim bütün əşyalarımı qarət etdi. Əhli-əyalım və mənə aid olanları əsir götürdü. O cümlədən, 25 il müddətində topladığım vərəqləri məhv etdi. Hər cürə təhqir, alçaltma və əziyyət etdi. O zülmkarın qorxusundan həyat yoldaşımın bətnindəki uşaq tələf oldu. Bütün əşyalarım qarət edildi. Vərəqlərin məzmunu yadımda qalmadığından və ümumiyyətlə o qədər məlumatı yadda saxlamaq mümkünsüz olduğundan bu məcmuə istədiyim kimi olmadı" (Hacı Zeynalabdin Şirvani, 1974, II hissə III cild, s.1059).

Buna baxmayaraq ömrünü səyahətdə keçirən dahi alim və səyyah bizim üçün 3 böyük əsər yadigar qoyub gedə bilmişdir. Məşhur səyyahın qələminin məhsulu kimi üç böyük əsəri məlumdur: "Səyahət bağları" (Riyaz əs-siyahət), "Səyahət bağçaları" (Hədayiq əs-siyahət) və "Səyahət bustanı" (Bustan əs-siyahət) (Hacı Zeynalabdin Şirvani, 2024. s.14).

**"Riyaz əs-siyahət"**

Öncə onu qeyd edək ki, istər elmi ədəbiyyatda və istərsə də kütləvi informasiya vasitələrində bu əsərin adının orfoqrafik və orfeopik baxımından müxtəlif cür yazıldığına və oxunduğuna rast gəlirik. Ağamir Quliyevin 1960-ci ildə Şərqşünaslıq İnstitutunun elmi əsərləri adlı jurnalında nəşr etdirdiyi "Bəzi xarici ölkə alimləri Hacı Zeynalabdin Şirvani haqqında" adlı məqaləsində "Riyazüssəyahə" (Ağamir Quliyev, 1960, s.128), Ağamir Quliyevin 1964-cü ildə nəşr etdirdiyi "Hacı Zeynalabdin Şirvanı" adlı əsərində əsərin adı "Riyazüs-səyahə" (Ağamir Quliyev, 1964. s.209), Ağamir Quliyevin 1974-cü ildə Ön söz yazaraq Moskvada nəşr etdirdiyi 3 cilddən ibarət "Riyaz əs-siyahət" əsərinin II hissəsində "Riyaz əs-siyahət" (Hacı Zeynalabdin Şirvani, 1974, II hissə III cild, s.13), 1987-ci ildə Bakıda nəşr edilən Azərbaycan Sovet Ensiklopediyasının X cildinin 145-ci səhifəsində "Riyazüs-səyahə" (ASE, X cild, 1987, s.145), 26 dekabr 2017-ci ildə professor Fazil Qaraoğlunun Bakı Xəbərdə nəşr edilən "Tarixdə iz buraxanlar: Hacı Zeynalabdin Şirvani" adlı məqaləsində "Riyazus-səyahə" (Qaraoğlu, 2017. s.15), Coğrafiya İnstitutunun şöbə müdiri coğrafiya üzrə fəlsəfə doktoru Habil Haqverdiyevin 2012-ci ildə AMEA-nın xəbərləri, Yer elmləri, №3, səhifə 78-də nəşr etdirdiyi "H.Z.Şirvaninin əsərlərində tarixi-coğrafi fikirlər" adlı məqaləsində "Riyazüs-səyahə" (Haqverdiyev, 2012. s.79) və eyni müəllifin 6 noyabr 2019-cu ildə Respublika qəzetində nəşr etdirdiyi "Klassik coğrafiyaçı-səyyah Hacı Zeynalabdin Şirvani" adlı məqaləsində "Riyazüs-səyyahə" kimi qeyd edilmişdir. Gördüyümüz kimi, ayrı-ayrı müəlliflər əsərin adını müxtəlif formada yazmışlar. Hətta yuxarıda qeyd etdiyimiz kimi, eyni müəlliflər müxtəlif illərdə əsərin adını bir-birindən fərqli formada yazmışlar. Əsərin adını "Riyaz əs-siyahət" kimi qeyd etməyimizin mənbəyi isə 1974-cü ildə Moskvada nəşr edilən 3 cilddən ibarət "Riyaz əs-siyahət" əsərinin II hissəsinin I cildində əsərə 41 səhifəlik Ön söz yazan və əsəri redaktə edərək nəşr etdirən mətnşünas və şərqşünas alim, tarix elmləri doktoru 1958–1980-ci illərdə AMEA Şərqşünaslıq İnstitutunun "Mətnşünaslıq və mənbələri nəşretmə" şöbəsində çalışmış mərhum alim Ağamir Quliyevin əsərin adının bu cür yazılmasına üstünlük verməsi olmuşdur.

Şirvaninin ilk əsəri iki hissədən ibarət olan "Riyaz əs-siyahət" əsəridir. Abbasqulu Ağa Bakıxanovun "zəngin və faydalı xəzinə" (Hacı Zeynalabdin Şirvani, 1974, II hissə I cild, s.1106), B.A.Dornun "ən yaxşı kamil mənbə" (Hacı Zeynalabdin Şirvani, 2024, s.32) və Çarlz Rionun "coğrafi əsər, tarixi və biblioqrafik qeydlərlə zəngin mənbə" (Hacı Zeynalabdin Şirvani, 1974, II hissə

I cild, s.1106) adlandırdığı bu əsərə A.Masse, Firudin bəy Köçərli, Məsuməli şah Təbrizi, Məhəmməd Əli xan Tərbiyət kimi məşhur alim və tədqiqatçılar çox böyük önəm verərək, həm müəllif və həm də qələmə aldığı əsərlər haqqında yüksək fikirlər söyləmişlər.

"Riyaz əs-siyahət" əsərinin böyük hissəsi 1821-ci ildə Qomşedə qələmə alınmışdır. Əsər bütünlüklə 23 iyul 1827-ci ildə sona çatmışdır (Hacı Zeynalabdin Şirvani, 2024, s.36). Görkəmli şərqşünas alim Ağamir Quliyevin 1974-cü ildə Moskvada Şirvaninin "Riyaz əs-siyahət" əsərinin II hissəsini nəşrə hazırlayaraq əsərin yazıldığı dildə yəni fars dilində nəşr etdirməsi təqdirə layiqdir. Həmin dövrdə "Yaxın və Orta Şərq xalqları İnstitutu" adlanan indiki Şərqşünaslıq İnstitutunun təşkilatçılığı, akademik Ə.Ə.Əlzizadə və T.A.Məhərrəmovun redaktorluğu və A.A.Quliyevin Ön sözü ilə çap edilən "Riyaz əs-siyahət" əsərinin ikinci hissəsi 3 kitabdan ibarətdir ("Riyaz əs-siyahət", 1974, II hissə I cild, s.5). Sevindirici haldır ki, həmin 3 kitab 2024-2025-ci illərdə Azərbaycan dilinə tərcümə edilərək nəşr edilmişdir. Şirvani bu əsərində şəxsən səfər etdiyi və ətraflı tədqiq etdiyi ölkələrin iqlimi, iqtisadiyyatı, həyat şəraiti, hökmdarları, alimləri və əhalinin adətləri haqqında maraqlı məlumat verməklə yanaşı bəzən də həmin ölkələrin adlarının meydana çıxmasının mənşəyini də qeyd edir. Şirvani bu əsərdə bəzi ölkələrin coğrafi koordinatlarını da dövrünün tələbinə uyğun olaraq Əbcəd hesabı ilə vermişdir. Biz "Riyaz əs-siyahət" əsərində şəhərlərin coğrafi koordinatlarından danışmazdan öncə qısaca da olsa bir neçə kəlmə coğrafi koordinatlar və Əbcəd hesabı haqqında məlumat verək.

**Coğrafi koordinatlar**

Coğrafi koordinatlar dedikdə yer üzərindəki obyektlərin yerini müəyyənləşdirmək üçün ekvatora perpendikulyar və paralel yerləşən koordinat sistemi başa düşülür. Coğrafi uzunluqlar ekvatora perpendikulyar, coğrafi enliklər isə paralel olaraq yerləşir. Müasir elmi ədəbiyyatda coğrafi uzunluğa belə tərif verilir: Qrinviç meridian müstəvisi ilə verilmiş N nöqtəsindən keçən meridian müstəvisi arasında qalan ikiüzlü bucaq coğrafi uzunluq adlanır. Coğrafi uzunluq Qrinviç meridianından başlayaraq şərq və qərbə doğru 0-180$^0$ arasında dəyişir. Yer səthində verilmiş N nöqtəsindən keçən şaquli xətlə ekvator müstəvisi arasında qalan bucağa bu nöqtənin coğrafi enliyi deyilir. Coğrafi enlik ekvatordan qütblərə doğru 0-90 arasında dəyişir (İlqar Musayev, Arif Həsənov, Rəşad Tahirov, 2021. S.7). Müasir dövrdə İngiltərədə yerləşən Qrinviç rəsədxanasından keçən meridian sıfır dərəcəli meridian kimi qəbul edilmişdir. Qrinviç meridianının sıfır dərəcəli coğrafi uzunluq kimi qəbul edilməsi 1884-cü ildə Amerika Birləşmiş Ştatlarında keçirilən Beynəlxalq Meridian konfransına təsadüf edir. Həmin vaxt konfransda iştirak edən 25 ölkədən 22-nin qəbul etməsi ilə Qrinviç meridianı sıfır dərəcəli coğrafi uzunluq kimi qeyd edilmişdir. Qrinviç meridianının başlanğıc nöqtə kimi qəbul edilməsinə qədər tarixən bir neçə başlanğıc meridianı mövcud olmuşdur. Beynəlxalq Meridian konfransına qədər dünya xəritələri və coğrafi əsərlərdə ekvator xətti sıfırıncı en dairəsi kimi qəbul edilsə də, amma başlanğıc meridianı ölkələrə görə dəyişirdi. Bu başlanğıc meridianlardan biri də Kanar adalarına görə hesab edilirdi. Müəllifin də "Cəzayere-Xalidat" adlandırdığı bu adalar İspaniyanın nəzarəti altındadır. Bu adaların adı tarixi və coğrafi mənbələrdə müxtəlif formada səslənmişdir. Əksər İslam mənbələrində Kanar adalarının 6 adadan ibarət olduğu fikri əsas götürülmuşdur. Çox güman ki, onlar böyük adaları nəzərdə tutaraq 6 adadan ibarət olduğunu qeyd ediblər. Son dövrlərdə isə adaların 7 adadan ibarət olduğu qeyd edilmişdir. Antik yunan alimləri insan yaşayan ərazilərin Kanar adalarından şərqdə yerləşdiyini düşünərək bütün ərazilərin bu adalardan nə qədər yaxın və ya uzaq olması ilə hesablayardılar. İlk dəfə bu adaların kim tərəfindən və nə zaman başlanğıc meridianı kimi götürülməsi barədə dəqiq məlumat yoxdur. Potelemeydən qalan xəritə və yazılarda Kanar adalarının başlanğıc meridan kimi götürülmə faktı mövcuddur. Ola bilsin ki, sonradan onun əsərlərinin tərcümə edilməsi ilə İslam dünyasında bu ənənə formalaşmışdır. Müsəlman dünyası Kanar adalarına görə apardığı hesablamaları Əbcəd hesabı ilə qeyd edirdilər. Onlar təqribən 10 əsrdən artıq bu hesablama metodundan istifadə etdilər. Fransa xəritəçiləri də 1894-cü ildə Meridian konfransında Qrinviç meridianın Başlanğıc meridian kimi götürülməsinə qədər dəniz və quru ərazilərin xəritələrinin tərtib edilməsində Paris rəsədxanasından keçən meridianı

başlanğıc kimi götürmüşlər. Artıq XIX əsrin sonrlarında vahid başlanğıc meridianın qəbul edilmə zərurəti meydana çıxdı. Bununla da uzun müzakirələrdən sonra Qrinviç meridianı başlanğıc meridian kimi qəbul edildi.

**Əbcəd hesabı**

Şirvaninin "Riyaz əs-siyahət" əsərində coğrafi koordinatlar dövrün tələblərindən çıxış edilərək Əbcəd hesabı ilə verdildiyindən bu hesabın nədən ibarət olması və hansı yerlərdə daha çox istifadə edilməsi haqqında bir neçə kəlmə qeyd etməklə mövzunun daha yaxşı anlaşılmasına çalışacağıq. Müəyyən bir rəqəmin və ya tarixin ərəb hərfləri ilə ifadə edilmək üsuluna Əbcəd hesabı deyilir. Əbcəd hesabı müsəlman dünyasında çox məşhur olmuş, xüsusən də klassik türk, ərəb və fars ədəbiyyatlarında geniş istifadə edilmişdir. Bu hesabda 1,2,3,4,5,6,7,8 və 9 ədədləri üçün 9 hərf (müvafiq olaraq ərəb əlifbasında ا ب ج د ه و ز ح ط hərfləri), 10, 20, 30, 40, 50, 60, 70, 80 və 90 rəqəmləri üçün 9 hərf (müvafiq olaraq ərəb əlifbasında ک ل م ن س ع ف ص hərfləri), 100, 200, 300, 400, 500, 600, 700, 800, 900 və 1000 rəqəmləri üçün 10 hərf (müvafiq olaraq ərəb əlifbasında ق ر ش ت ث خ ذ ض ظ غ hərfləri) nəzərdə tutulmuşdur. Ərəb əlifbasında mövcud olan 28 hərfin hər biri üçün bir rəqəm nəzərdə tutaraq cədvəl hazırlamış və həmin cədvələ də müvafiq olaraq hesablamalar aparmışlar.

Əbcəd hesabından əsasən aşağıdakı yerlərdə istifadə edirdilər:

1. Bəzi kitabların müqəddimələrini səhifələyərkən bu hərflərdən istifadə edirdilər.
2. Bəzən bir məktub və yazıda bir ifadəni açıq-aşkar yazmamaq üçün onu simvollaşdıraraq Əbcəd hərfləri ilə yazar və bununla da xüsusi bir şəxsə və ya şəxslərə məlumat ötürməyə çalışardılar
3. Tarixdə baş verən hadisələri Əbcəd hesabında müvafiq gələn və asan yadda qalan bir sözlə yaxud şer formasında yazırdılar. Nümunə üçün deyək ki, Müzəffərəddin şah Məşrutəni 1906-cı ildə yəni ölümündən bir müddət öncə imzalamışdır. Bu tarix عدل مظفر (Ədle Muzəffər, yəni Müzəffərin ədaləti) kimi qeyd edilir. Bu hicri-qəməri tarixi ilə 1324-cü və miladi tarixi ilə 1906-ci ilə təsadüf edir. Bu tarix Məşrutənin imzalandığı tarix deməkdir. Bu ifadə ilə həm obrazlı şəkildə Muzəffərəddin Şahın əməlinə qiymət verir və həm də həmin tarixi rahat formada yadda saxlayırlar. Başqa bir nümunə kimi monqolların xilafətin paytaxtı olan Bağdad şəhərini ələ keçirməsini göstərmək olar. Salnaməçilər həmin tarixi Əbcəd hesabı ilə "Xun (خون)" deyə yazırdılar. Xun sözü qan deməkdir. Şəhərin ələ keçirilməsi zamanı çoxlu qan töküldüyündən obrazlı şəkildə onu belə qeyd edirdilər. Çünki monqollar hicri-qəməri tarixi ilə 656-cı ildə (miladi tarixi ilə 1258-ci ildə) şəhəri ələ keçirdilər. 656 rəqəmi də Əbcəd hesabı ilə "Xun" kəlməsinə müvafiqdir.
4. Bəzən yazıda ifadələr bir-biri ilə səhv salınmasın deyə onun Əbcəd hesabında müvafiq qarşılığını yazmaqla yanlış anlaşılmasının qarşısını alardılar.
5. Hərflərdən İrfan elmində də geniş istifadə edilmişdir. Nümunə kimi, İbn Ərəbinin "Miftahul-əsrar dər elme cefr və huruf" adlı əsərinin adını qeyd etmək olar.
6. Sufilər də öz dua və münacatlarında Əbcəd hesabından istifadə edərdilər. Məsələn, İslam peyğəmbərinin adı olan "Məhəmməd" sözü ilə "Aman" sözlərinin Əbcəd hesabı ilə ekvivalenti 92 rəqəmi etdiyindən sufilər öz dua və münacatlarında sadəcə "Aman" deyə səsləməklə Məhəmməd peyğəmbəri nəzərdə tutardılar.
7. Coğrafi koordinatları onun Əbcəd qarşılığı ilə yazardılar. Hacı Zeynalabdin Şirvaninin "Riyaz əs-siyahət" əsəri belə nümunələrlə doludur. Onların hamısını qeyd etmək bu məqalənin imkanları xaricində olduğundan bir neçəsini qeyd etməklə kfayətlənəcəyik.

**"Riyaz-əs-siyahət" əsərində coğrafi koordinatlar**

Hacı Zeynalabdin Şirvaninin istər "Riyaz əs-siyahət"in I hissəsində və istərsə də III hissədən ibarət II hissəsində biz bir çox şəhərlərin coğrafi koordinatlarını Əbcəd hesabı ilə qeyd etdiyinin şahidi oluruq. I hissənin I cildində Təbriz, Herat, Bəlx, İsfahan, Şiraz, Qəzvin, Kufə və digər şəhərlərin Əbcəd hesabı ilə koordinatları qeyd edilmişdir. Məsələn biz Təbrizin coğrafi koordinatları kimi, Kanar adalarından uzunluğu (قب) eninin isə ekvatordan (لح) kimi qeyd edildiyini görürük. Bu hərfləri Əbcəd hesabı ilə hesabladıqda Təbrizin Kanar adalarından hesablanmaqla uzunluğunun $102^0$

və eninin isə ekvatordan $38^0$ olaraq qeyd edildiyinin şahidi oluruq. Əbcəd cədvəlinə görə (قب) yəni ق+ب= 100+2; eni isə (لح) yəni ل+ح =30+8=$38^0$. Məlumat üçün qeyd edək ki, hal-hazırda Təbrizin coğrafi enliyi 38°4'52, coğrafi uzunluğu isə 46°17'24 kimi qeyd edilir.

Şirvaninin qeyd etdiyi koordinatlarla biz Təbrizin indiki coğrafi koordinatlarını müqayisə etdikdə coğrafi enliyin təqribən eyni olduğunu və coğrafi uzunluqda isə kəskin fərqin olduğunu müşahidə edirik. Şirvani və digər orta əsr şərq müəlliflərinin əsərlərini tədqiq edərkən coğrafi koordinatların Kanar adalarına görə hesablandığını və ona görə də müasir dövrdə Qrinviç meridanına görə hesablanan coğrafi koordinatlardan fərqlənmə gerçəyini nəzərdən qaçırmamaq lazımdır. Həmçinin burada Bəlx şəhərinin coğrafi koordinatları da Əbcəd hesabı ilə verilmişdir. Belə ki, yenə də Kanar adalarından hesablanmaqla uzunluğu (قا) və enliyi isə (لوما) olaraq götürülmüşdür. Əbcəd hesabına müraciət etdikdə ق+ا=100+1=$101^0$, enliyi isə ekvatordan ل-و+م+ا=30+6+40+1=$77^0$ deməkdir. H.Z.Şirvani bu əsərdə coğrafi uzunluq və enliyi Əbcəd hesabı ilə müvafiq olaraq (قا) və (لوما) kimi qeyd etmişdir. Əbcəd hesabı ilə hesabladıqda bu hərflərin ekvivalenti 100+1=1010=ق+ا şərq uzunluğunda və 1+40+6+30 =770= ل+و+م+ا şimal enliyində olur (Hacı Zeynalabdin Şirvani. I hissə. Əsğər Hamid. 1960). Riyaz əs-siyahətin II hissəsinin I cildində Səmərqənd, Sivas, Konya, Qeysəriyyə şəhərlərinin coğrafi koordinatları verilmişdir. Konya şəhərinin coğrafi koordinatları uzunluq olaraq (1100) və en olaraq isə (1110) kimi qeyd edilmişdir. H.Z.Şirvani Əbcəd hesabı ilə şəhərin uzunluğunu Kanar adalarından (سه مه), enliyini ekvador xəttindən ( ماع ) olaraq götürmüşdür. Əbcəd hesabı ilə hesabladıqda bu hərflərin ekvivalenti 60+5+40+5=1100=س+ه+م+ه uzunluğunda və 40+1+70 =1110= م+ا+ع enliyində olur (Yəhyayev. 2025, s.104). Riyaz əs-siyahətin II hissəsinin II cildində Dəməşq və Məkkə şəhəri habelə Amid (indiki Diyarbəkir şəhəri nəzərdə tutulur) və İlya (Onu Yerusəlim və Beytul-Müqəddəs də adlandırırlar) bölgələrinin Əbcəd hesabı ilə coğrafi koordinatları da verilmişdir. Dəməşq şəhərinin coğrafi koordinatları uzunluğu Kanar adalarından (عح), enliyi ekvator xəttindən (لحمه) dərəcəsində yerləşir. Əbcəd hesabı ilə ع+ح=70+8=$78^0$ uzunluğunda və ل+ح+م+ه= 30+8+40+5=$83^0$ enliyində yerləşir. Məkkə şəhərinin coğrafi kordinatları da Əbcəd hesabı ilə verilmişdir. Belə ki, Məkkənin coğrafi uzunluğu Kanar adalarından (عزو), enliyi isə ekvator xəttindən (كام) olaraq müəyyənləşibdir. Əbcəd hesablamalarına görə ع+ز+و 70+7+6= $83^0$ uzunluğunda, ک+ ا +م =20+1+40= $61^0$ şimal enliyində yerləşir. Riyaz əs-siyahətin II hissəsinin III cildində isə Yəsrib (bəzi alimlər həmin yerin adını Təhamə olaraq qeyd edirlər. Bu vilayət geniş ərazili məhsuldar diyardır. Onun ən böyük şəhəri Mədinədir. Mədinənin əslində Yəsrib olduğu fikri ilə hamı razıdır. Peyğəmbər (s) onu Mədinə adlandırmışdır) (Hacı Zeynalabdin Şirvani, 1974. II hissə II cild, s.759) və Ümmül-bilad (Hacı Zeynalabdin Şirvani, 1974. II hissə I cild, s.818) şəhərlərini də nümunə kimi göstərmək olar. Yəsrib şəhərinin coğrafi koordinatlarına gəldikdə isə Kanar adalarından uzunluğu (عه ک) enliyi isə ekvator xəttindən (از) olaraq verilmişdir. Əbcəd hesabına müraciət etdikdə biz coğrafi uzunluğun ع+ه+ک=10+5+20= $35^0$ və coğrafi enliyin isə ا+ز=1+7=$8^0$ olduğunu müşahidə edirik. Ümmül-bilad (Ona Qahirə və bəzən Misir də deyirlər. Çünki Misir bütünlüklə o diyarın vilayətlərinə şamil edilirdi) isə Kanar adalarından uzunluğu (سحد) və enliyi (له ک) isə olaraq götürülmüşdür. Əbcəd hesabına müraciət etdikdə biz coğrafi uzunluğun ل+ه+ک=30+5+20=$55^0$ və ekvatordan enliyinin isə س+ح+د=60+8+4=$72^0$ olduğunu görürük.

## Nəticə

Şirvaninin "Riyaz əs-siyahət" və eləcə də digər iki böyük əsərində qeyd edilən məlumatlar onun öz dövrünün elmlərini necə gözəl mənimsədiyinin bariz nümunəsidir. Şirvani səyahət etdiyi ölkələrin iqlimi, əhalisi, təbii resursları, fiziki coğrafiyası haqqında tam dolğun məlumatlar verməklə kifayətlənməmiş, həm də həmin ölkə və şəhərlərin adlarının etimologiyası, necə yaranması, tarixən kimlər tərəfindən idarə edilməsi barəsində də maraqlı məlumatlar vermişdir. Bu əsərlər dövrün tələbindən irəli gələrək fars dilində yazılsa da, çox təəsüf ki, indyiə qədər doğma dilimizə tərcümə edilməmişdi. Müxtəlif vaxtlarda ayrı-ayrı tədqiqatçılar öz əsərləri və məqalələrində həmin əsərdən sitat gətirməklə kifayətlənmişdilər. Şirvaninin əsərlərində bir çox şəhər və vilayətlərdən söhbət açılmış və onların bəzilərinin coğrafi koordinatları bəhs edilmişdir. Lakin əsərin orijinalına müraciət

etdikdə oxucu iki böyük çətinliklə qarşılaşır. Birincisi həmin koordinatlar ərəb hərfləri ilə yəni Əbcəd hesabı ilə verilmiş, ikincisi isə həmin koordinatlar hal-hazırda həmin şəhər və vilayətlərin koordinatlarından bir çox hallarda kəskin fərqlənir. Bu məqalədə həmin coğrafi koordinatların Əbcəd hesabı ilə düzgün formada oxunması yəni ərəb hərfləri ilə verilmiş koordinatların rəqəmlərlə qarşılığının hesablanma üsulu və həm də coğrafi koordinatlarda yaranan fərqin nədən qaynaqlandığını izah etməyə çalışdıq.

## ƏDƏBİYYAT SİYAHISI

Ağamir Quliyev. “Bəzi xarici ölkə alimləri Hacı Zeynalabdin Şirvani haqqında”. Şərqşünaslıq İnstitutunun elmi əsərləri. N 2. Bakı. Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı. 1960. 128 s.

Ağamir Quliyev. Hacı Zeynalabdin Şirvani. Bakı. Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı. 1964. 209 s.

Bakıxanov, A.A. (1951). Gülüstani-İrəm. (M.Əsgərli, tərc,: Ə.Ələsgərzadə, red.). Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 302 s.

Hacı Zeynalabdin Şirvani. Riyaz əs-siyahət. II hissə, I cild. Şərq Ədəbiyyatı redaksiyası. Moskva 1974, 1106 s.

Hacı Zeynalabdin Şirvani. Riyaz əs-siyahət. II hissə, III cild. Şərq Ədəbiyyatı redaksiyası. Moskva 1974, 1106 s.

Hacı Zeynalabdin Şirvani. Səyahət bağları "Riyaz əs-siyahət". II hissə, I cild. Elmi redaktor: Zakir Eminov, Tərcümə edən: Şahin Yəhyayev, Rəyçilər: Şahin Fazil, Vasif Qafarov, Bakı: Optimist MMC nəşriyyatı, 2024, 546 s.

İlqar Musayev, Arif Həsənov, Rəşad Tahirov. Hərbi əməliyyatlar zamanı koordinat sistemlərinin qarşılıqlı istifadəsi. Hərbi bilik. Elmi-nəzəri, publistik jurnal.N 2, Bakı. 2021. https://mod.gov.az/images/pdf/9ee555387637ef61b92ef0c11a8f91a5.pdf.

Şirvani, H.Z. (1960). Riyaz əs-siyahət (I hissə, Ə. Hamidin red.). Tehran: Zöhrə nəşriyyatı, 910 s.

URL: http://www.anl.az/down/meqale/baki_xeber/2017/dekabr/569612.htm

URL: https://journalesgia.com/wp-content/files/2012/03/2012_03_G_Akhverdiyev.pdf

URL: https://shamakhi-encyclopedia.az/haci-zeynalabdin-sirvani/

Yəhyayev Şahin. Məlikov Ələddin. Hacı Zeynalabdin Şirvanin “Riyaz əs-Siyahət” əsərində Əbcəd hesabı. Metafizika, Bakı. 2025, s.96-107